**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№368/4** **30 sentyabr 2024-cü il**

**“Fasiləsiz (davamlı) audit” adlı metodoloji material barədə**

“Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına” (2021-2030-cu illər) uyğun olaraq və Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.6-cı "Fasiləsiz (davamlı) auditin aparılmasının normativ hüquqi və metodoloji əsaslarının yaradılması" bəndinin icrası ilə əlaqədar Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun rəhbərliyi ilə Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin sabiq rəisi Q.Əhmədov tərəfindən hazırlanmış “Fasiləsiz (davamlı) audit” adlı metodoloji materialın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Fasiləsiz (davamlı) audit” adlı metodoloji material bəyənilsin və tətbiqi məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, öz fəaliyyətlərində fasiləsiz (davamlı) auditin tətbiq edilməsini təmin etsinlər.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2025-ci ilin I rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Fasiləsiz (davamlı) audit” mövzusunda seminarın keçirilməsi təmin edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Fasiləsiz (davamlı) audit” adlı metodoloji materialın auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.
5. “Fasiləsiz (davamlı) audit” adlı metodoloji material Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin və geniş oxucu kütləsi üçün nəzərdə tutulan “Audit. Yeni dövrün çağırışları” kitabının tərkibinə daxil edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**